**Səfər Həsən oğlu PÜRHANİ,** i.e.d., prof,
Qərbi Kaspi Universitetinin
"Turizm və sahələr iqtisadiyyatı" kafedrasının müdiri

**Rasim Cavan oğlu ABBASOV** i.ü.f.d.,
Qərbi Kaspi Universitetinin "Turizm və sahələr iqtisadiyyatı"
kafedrasının müəllimi

# POST PANDEMİYA DÖVRÜNDƏ BEYNƏLXALQ TURİZMİN İNKİŞAFININ PERSPEKTİV İSTİQAMƏTLƏRİ

**Xülasə**

Məqalədə beynəlxalq turizm sahəsində əsas amillər, beynəlxalq turizmin inkişaf istiqamətləri, ölkəmizdə pandemiyaya qədərki dövrdə turizmin inkişaf göstəriciləri və postpandemiya dövründə turizmin yenidən inkişafı istiqamətində görülən müvafiq tənzimləyici tədbirlər araşdırılmışdır.

**Açar sözlər:** *beynəlxalq turizm, səyyah,postpandemiya,rekreasiya zonaları,investisiya.*

**UOT:** 379.85
**JEL:** L83
**DOI:** 10.54414/OPZI1183

Bəşər cəmiyyəti yarandığı dövrdən daim qida ehtiyacı, coğrafi səbəblər, inanclar və digər amillərin təsiri ilə fiziki yerdəyişmə insanların aktiv fəaliyyətinə aid edilir. Hələ qədim dövrdən tayfalarda yaşayan insanlar ovçuluq və yığıcılıqla əlaqəli ehtiyatların azalması səbəbi ilə yerdəyişmə edirdilər. Sonrakı dövrlərdə əkinçilik, heyvandarlıq, sənətkarlıq və ticarətin meydana gəlməsi, şəhər və dövlətlərin yaranması insanların məkan dəyişdirməsinə səbəb oldu.

Dövlətlərarası münasibətlər elçilər vasitəsilə aydınlaşırdı və bu şəxslərin uzun marşrutlar qət etmək üçün qalmaq yerlərinə, ticarət karvanları üçün yolüstü dayanma məntəqələrinin yaradılmasına ehtiyac yaranırdı. İnsanların dini inancları ilə əlaqədar olaraq zəvvar kimi ziyarətlərə getməsində illərlə artım müşahidə olunurdu. Bu kimi məsələlərlə bu gün müasir dünyada turist yerləşdirmə müəssisələrinin əcdadı hesab olunan karvansarayların tikilməsi hələ feodolizmdən əvvəlki dövrdə mövcud idi.

Quldarlıq quruluşundan da əvvəl meydana gələn müxtəlif səbəbli yerdəyişmələr, səyahətlər kütləvi planlı turizm hesab edilmirdi. Buna baxmayaraq, məhz ticarət məqsədli karvanlarla uzun məsafələr qət edən səyyahların dayanma məntəqələrində insanlar və heyvanlar üçün qalacaq yerləri və qidalanma ilə təminatını ilk turizm xidmətləri kimi qeyd etmək mümkündür.

İlk dəfə Finikiyalılar dəniz yolu ilə səyahət həyata keçirib Afrikanın şimalında, Karfagendə koloniyalar qurdular.

Səyahətlərin miqyasının və növlərinin genişləndiyi zamandan səyyahları maraqlandıran və beynəlxalq turizmə mühüm təsir göstərən amillər var idi. Bildiyimiz kimi, vaxt amili xüsusi Səyahətlərin miqyasının və növlərinin genişləndiyi zamandan səyyahları maraqlandıran və beynəlxalq turizmə mühüm təsir göstərən amillər var idi. Bildiyimiz kimi, vaxt amili xüsusi əhəmiyyət kəsb edir. Vaxt insanlar üçün verilmiş nemətdir və ondan düzgün istifadə etmək fayda gətirir. İnsanlar vaxtlarının bir hissəsini istirahətə ayırırlar. Vaxt amili beynəlxalq turizmdə xüsusi rol oynayır. Hər hansı sahədə işləməsindən və ya şəxsi biznesi olmasından asılı olmayaraq insanlar həyatlarının əhəmiyyətl bir hissəsini işə sərf edirlər. Digər saatlar yola sərf olunan vaxt, qohumlarla, dostlarla ünsiyyət, qidalanma və digər məsələlərə sərf edilir. Lakin müəyyən zamandan sonra bu standart həyat tərzi ilə bağlı yorgunluq və itirilmiş bioloji və psixoloji enerjinin bərpası istiqamətində ən azı yaxın ərazilərə daxili turlar və ya şəxsi avtomobillə səyahət etmək insanların- potensial turistlərin əsas planlarından birinə çevrilir. Təbii ki, burada artıq insan boş vaxt, həftəsonu tətil və ya şəxsi məzuniyyət hesabına tətilə çıxmaq istəyir. Bütün

hallarda turizm bazarında olan tələbin bütün seqmentlərində vaxt amili mühüm rol oynayır. Bu vaxtlar- bir neçə saatdan bir neçə aya qədər uzana bilər. İkincisi, vaxtla paralellik təşkil edən maddi amildir. Təbii ki, büdcə burada mühüm rol oynayır və potensial turist büdcəsinin müəyyən hissəsini təkbaşına dostlarla, kollektivlə və ya ailəliklə həyata keçirəcəyi səhayət planına ayırır. Burada da səyyahları üç qrupa ayırmaq mümkündür: az büdcəyə malik olanlar, orta gəlirli müştərilər və yüksək gəlirli müştərilər. Aşağı gəlirə malik insanlar qənaətçil turpaketlərə üstünlük verirlər. Bu zaman keyfiyyət amili müəyyən qədər maraqlı olsa da, əsasən qiymət amilinə üstünlük verilir və əlavə xidmətlər o qədər də maraqlı olmur. Məsələn, rekreasiya xarakterli bir turpaketdə kanatlardan və ya xizəklərdən istifadə üçün əlavə və təbii ki könüllü xidmət təklif edildiyi zaman az büdcəli turistlər buna o qədər də maraqlı olmurlar. Orta gəlirli müştərilər isə əsasən daha yuxarı büdcəyə malik müştərilərin tələb etdiyi turpaketlərə uyğun məhsullara daha çox meyilli olurlar, lakin qiymət amili də onlar üçün müəyyən qədər maraqlı olur. Yüksək gəlirli müştərilərdə isə tələbat adətən keyfiyyət üzərində qurulur və daha keyfiyyətli və brend məhsullara üstünlük verirlər.

Bir çox ölkələrdə turizm XX əsrin fenomeni adlandırılır. Bu gün müasir texnika və texnologiyanın sayəsində dünyanın istənilən yerinə səyahət etmək mümkündür. Son 30 ildə turizm insanların tələbatına çevrilibdir. Dünya Turizm Təşkilatının hesablamalarına görə 2000-ci ildə dünya üzrə turizm gəliri 500 mlrd., 2004-cü ildə 600 mlrd., 2009-cu ildə 850 mlrd., 2013-cü ildə 1 trln., 2017-ci ildə 1,3 trln., 2019-cu ildə isə 1,6 trln. dollardan artıq olubdur. Turizm iqtisadiyyatın ən yüksək məhsuldarlı və ən dinamik sektorudur. Hal-hazırda turizm sahəsində 250 mln.-dan çox işçi çalışır. Ümumi investisiyanın 7%-i, istehlakçı xərclərinin 11%-i, bütün vergi gəlirlərinin 5%-i və dünya üzrə xidmət ticarətinin 33%-i turizmin payına düşür.[1]

XX əsrdə beynəlxalq turizm yüksək sürətlə inkişaf etdi. Bu məsələ dünyada baş verən sosial-iqtisadi demoqrafik vəziyyətlə sıx bağlıdır. Xüsusilə ikinci dünya müharibəsindən sonra Avropanın yenidən bərpa edilməsi, bir sıra ölkələrin müstəmləkəçilikdən azad olub dünyanın siyasi xəritəsində dəyişiklik edilməsi əsasən də sənayenin inkişafı, Elmi -Texniki Tərəqqi dövrü və hal-hazırda yaşadığımız informasiya texnologiyaları əsrində turizm sürətlə inkişaf edir.

Bildiyimiz kimi XX əsrin sonlarından etibarən inkişaf etmiş ölkələrin turizm bazarında struktur dəyişiklikləri baş verib. Zaman keçdikcə insanlar aktiv istirahətə üstünlük verirlər ki, nəticədə də turizm idmanın ayrı-ayrı növlərini özündə birləşdirir. Ekstremal turizmin inkişafı da bu idman növlərinin tarixi ilə sıx bağlıdır. Ekstremal turizimdə müəyyən risk və təhlükələr olsa da, bu nəticə etibari ilə əsrarəngiz bir istirahət deməkdir. Ekstremal turizmin dağ növlərinə alpinizm, speleturizm, buzadırmanma və qayayadırmanma, dağ velosipetində hərəkət, dağ xizəkçiliyi və snoubording aiddir. Dağ - Xizək turizmin inkişaf etdiyi ölkələr: İlk öncə dağ turizminin vətəni sayılan avstriyadan başlayaq. Burada mövsüm Dekabrda başlayır və May ayının axırlarına qədər davam edir. Avropada dağ-xizək sürmək turizminin mərkəzi olan Avstriya üçün heç də təəccüblü deyil. Terrasda taxtalardan düzəldilmiş və dadlı mətbəxi olan kiçik restoranlar, gecə əyləncələri proqramın bir hissəsidir.

Norveçdə dağ-xizək turizminin bir hissəsi Laplandiya ərazisində yerləşir. Ancaq yolların çox geniş olmaması səbəbindən bura turist cəlb edilməsi baxımından zəifdir. Regionun dörd zonasını özündə birləşdirən Ore tarixi keçmişı ilə fərqlənir. Ore-byu, Ore-borner, Duved, Turqefel və Edsdallend xizək sürməyi sevən insanlar üçün çoxlu sayda istirahət mətkəzləri, qış parkları, oteller və restoranları ilə seçilir. Mərkəzdən Ore-byuya gedən funikulyor 100 il əvvəl tikilməsinə baxmayaraq, hələ də fəaliiyət göstərir. İtaliyada da mövsüm Dekabr ayından başlayır və qiymətlər Fransada olduğu kimi seçdiyiniz otellərə görə dəyişir. İtaliyada dağ-xizək turizm zonaları Fransa, İsveçrə və Sloveniya ilə qonşu olduğu üçün sərhədlərin harada bitməsi heç kəsə məlum deyil və siz rahatlıqla digər ölkələrin də ərazisinə keçə bilərsiniz [2].

Ölkəmizdə beynəlxalq turizmin inkişafının əsasları 1994 cü ildə əhəmiyyətinə görə əsrin müqaviləsi adlanan uğurlu neft strategiyası ilə qoyuldu. Təsadüfi deyildir ki, ekspertlər ümumilikdə turizmin inkişafında əsas faktorlardan biri kimi sənayenin inkişafını göstərirlər. Belə ki,

sənayenin inkişafı məcmu tələbə güclü təsir effektinə malikdir. Ölkəmizdə neft sənayesinin və müstəqil Azərbaycanın ümumi iqtisadi inkişafının əsasını qoyan uğurlu neft strategiyası işgüzar turizmə çox effektiv təsir göstərdi. Biznes mühitinin yaxşılaşdırılması fonunda inkişaf etmiş ölkələrin transmilli korporasiyaların ölkəmizə marağı artmış və işgüzar turizm sürətlə inkişaf etməyə başlamışdır. Bunun nəticəsində həmin dövrdən başlayaraq paytaxt Bakı və Bakı ətrafı ərazilərdə mövcud turizm zonaları inkişaf etmişdir.

Bu, eyni zamanda qonaqpərvərlik sənayesinin də inkişafı demək idi. Ölkəmizdə sovet dövründən qalan mehmanxanaların restavrasiyası ilə yanaşı yeni otellər və hostellər inşa edilib istifadəyə verilmişdir.

Azərbaycanda turizmin 2017-2021 ci illər üzrə statistik təhlili dövlət statistika komitəsinin rəsmi məlumatları əsasında araşdırılarkən ümumi göstəricilərdə müsbət dinamika müşahidə olunur. Pandemiyanın bütün dünyada turizmə böyük zərbə vurduğu məlumdur. Bu problemlər ölkəmizdən də yan keçmədi və nəticədə gediş-gəlişin kəskin azalması və quru sərhədlərin bağlanması ümumilikdə turizmdə göstəricilərin azalması ilə nəticələndi. Bu səbəbdən, məhz 2019 cu ilin sonundan başlayaraq 2021- ci ilin birinci rübünün sonunadək turizm sahəsində problemlər yaranmışdır.

**Turizm sahəsində əsas göstəricilər**

| İllər | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| Turizm üçün xarakterik sahələrdə çalışan işçilərin sayı, nəfər | 46837 | 53222 | 58972 | 49019 | 53717 |
| Turizm üçün xarakterik sahələrdə yaradılmış əlavə dəyərin həcmi, milyon manat | 3151,0 | 3464,3 | 3704,9 | 1386,7 | 2062,6 |
| Turizm üçün xarakterik sahələrdə yaradılan əlavə dəyərin ölkənin ümumi daxili məhsulunda xüsusi çəkisi, faizlə | 4,5 | 4,3 | 4,5 | 1,9 | 2,2 |
| Turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyaların həcmi, milyon manat | 267,3 | 229,7 | 133,7 | 79,3 | 242,4 |
| Turist qəbulu və göndərilməsi | | | | | |
| Qəbul edilmiş və göndərilmiş turistlərin sayı, nəfər | 77587 | 83722 | 99507 | 8205 | 16324 |
| o cümlədən: | | | | | |
| qəbul edilmiş | 13455 | 12777 | 30950 | 2304 | 1848 |
| göndərilmiş | 64132 | 70945 | 68557 | 5901 | 14476 |

Mənbə: Dövlət Statistika Komitəsi

Pandemiyaya qədərki dövrdə turizmin inkişafı istiqamətində müvafiq tədbirlər bu sahənin sürətli inkişaf mərhələsinə qədəm qoymasına gətirib çıxarmışdır.

2012- ci ildə məşhur konsert zalları ilə müqayisə oluna biləcək “Bakı Crystal Hall”da Eurovision-2012” mahnı müsabiqəsi keçirilmişdir. “Baku Kristall Hall” da eyni zamanda milyonlarla izləyiciləri olan dünya şöhrətli müğənnilərin konsert proqramı ilə çıxışı keçirilmişdir. Bu konsertlərin keçirilməsi ölkəmizə, xüsusilə paytaxta və paytaxta yaxın turizm ərazilərinə xarici qonaqların gəlişini stimullaşdırmışdır. 2015- ci ildə Avropa oyunları Bakı şəhərində təşkil edilmiş və satışa 600000 bilet çıxarılmışdır [3].

Ölkəmizdə 2016- ci ildən beynəlxalq səviyyəli idman yarışları- formula -1 Avropa Qran Prisi keçirilir. Bakı şəhəri 2017 -ci ildə daha bir məşhur idman yarışlarına- İslam Oyunlarına ev sahibliyi etmişdir. Bütün bu faktorlar Azərbaycana turist gəlişini dəfələrlə artırmışdır. Bütün bu əhəmiyyətli beynəlxalq tədbirlərə hazırlıq lap əvvəldən başlamışdır. Belə ki, müvafiq infrastrukur qurulmadan belə əhəmiyyətli tədbirləri keçirmək mümkünsüz olardı.

Bu istiqamətdə dövlət tənizimlənməsi tədbirləri çərçivəsində Bakı, Sumqayıt, Gəncə kimi

böyük şəhərlərdə mədəni-tarixi turizm obyektləri restavrasiya edilmiş yeni müasir körpülər, stadionlar, konsert zalları, biznes mərkəzləri və 3,4,5 ulduzlu hotellər istifadəyə verilərək fəaliyyət göstərirlər. Regionlarda turizmin inkişafı istiqamətində ayrı-ayrı şəhərlərin inkişaf planları hazırlanmış və 2004- cü ildən başlayaraq regionların sosial-iqtisadi inkişafı dövlət proqramları xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"ndən biri kimi ixtisaslaşmış turizm və əyləncə müəyyən edilmiş, beynəlxalq və yerli ekspertlərlə birlikdə dünya təcrübəsində turizm sahəsində islahatların ən uğurlu modelləri və onların ölkəmizdə tətbiqi imkanları təhlil edilmişdir. Aparılmış təhlillər nəticəsində turizm sahəsi üzrə strateji yol xəritəsinin ilkin layihəsi hazırlanmışdır. Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında qeyd olunur ki, Xızı-Xaçmaz, Quba və Qusar turizm və rekreasiya zonalarının Baş inkişaf planlarını hazırlayıb təsdiq edilsin və onların pasportlarının dövlət qeydiyyatına alınması təmin edilsiin. 2017-ci il və növbəti illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsinin layihəsində Azərbaycan Respublikasının *Dövlət Turizm Agentliyinin* müraciəti əsasında ticarət festivallarının ("shopping festival") keçirilməsi ilə bağlı tələb olunan vəsaitin nəzərdə tutulmasını təmin etsin.

Pandemiya dövründə iqtisadi sahələrə birbaşa dövlət yardımının göstərilməsi, iş yerlərin kütləvi ixtisarının qarşısını almış və pandemiyadan əziyyət çəkən bu biznes subyektlərini tamamilə iflas olmaqdan saxlamışdır. Belə ki, İqtisadiyyat Nazirliyi ilkin mərhələdə pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi və fərdi (mikro) sahibkarlara maliyyə dəstəyinin göstərilməsi ilə bağlı aşağıdakıları vergi ödəyicilərinin diqqətinə çatdırmışdır:

Pandemiyadan zərər çəkmiş sahələrdə iş yerlərinin sayının azaldılmasının qarşısının alınması məqsədilə əmək müqaviləsi əsasında çalışan muzdlu işçilərin əməkhaqqının müəyyən hissəsinin ödənilməsi mexanizmi çərçivəsində:

Bu tədbir pandemiyanın zərər vurduğu fəaliyyət sahələrində və klasterlərdə çalışan 300 min nəfər muzdlu işçinin (əmək müqaviləsi olan) əmək haqlarının müəyyən hissəsinin ödənilməsi üçün sahibkarlara dövlət tərəfindən 215 milyon manat həcmində maliyyə dəstəyinin göstərilməsini nəzərdə tutur. Bu mexanizm çərçivəsində vergi ödəyicilərinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) mövcud olan elektron kabinetləri vasitəsilə təqdim etdikləri müraciətlər əsasında, qısa müddət ərzində onların işçilərinə ödənilməli olan əməkhaqqının və ona müvafiq sosial sığorta haqlarının müəyyən hissəsi işəgötürənlərin bank hesablarına köçürülməsi planlaşdırılmışdır.[4]

Ölkəmizdə beynəlxalq turizmin inkişafında əsas faktorlardan biri də regionlarda turist yerləşdrmə obyektlərinin yaradılmasıdır. Ölkəmizin regionlarında iki və üç ulduzlu hotellərin və hostellərin tikilməsi, istifadəyə verilməsi istiqamətində də mühüm tədbirlər planı hazırlanmışdır. Əsasən rayonlarda hostellərin və aşağı ulduz kateqoryalı hotellərin tikilib istifadəyə verilməsi üçün müvafiq tənzimləyici qərarlar qəbul edilmişdir. Azərbaycan hökuməti ölkəyə investisiyaların cəlb olunması və dövlət təftişlərinin sadələşdirilməsi yolu ilə turizmin inkişafı üçün ən uyğun şərait yaratmağı hədəf qoymuşdur. "İTS-nin verilməsi aşağıdakı meyarlara əsaslanır:

- İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahəsi;
- investisiya layhəsi iki və üç ulduzlu hotellər, hostellərin tikintisi ilə bağlı olmalıdır.
- İnvestisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ;

Ümumi investisiya məbləği hostellər üçün 100.000 AZN, iki ulduz və üç ulduz hotellər üçün 2.000.000 AZN məbləğində olmalıdır. Yatırılmış minimal investisiya məbləği hostellər üçün 100.000 AZN, iki ulduz və üç ulduz hotellər üçün isə 2.000.000 AZN məbləğində olmalıdır.

***İnvestisiya layihəsinin həyata keçiriləcəyi inzibati ərazi vahidləri üzrə meyarlar.***

- İnvestisiya layihəsi Bakı, Bakı ətrafı qəsəbələr, Abşeron, Sumqayıt və Gəncə şəhəri istisna olmaqla rayon və şəhərlərdə nəzərdə tutulmalıdır.

"İnvestisiya Təşviq Sənədi" İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilir. Sənədi almaq üçün sahibkar ərizə ilə birlikdə aşağıdakı sənədləri təqdim etməlidir:

¬ vergi ödəyicisi kimi uçota alınma haqqında şəhadətnamənin surəti;

¬ nəzərdə tutulmuş məbləğin 10%-nin layihəyə investisiya kimi qoyulduğunu təsdiq edən sənəd;

¬ aşağıdakı meyarlara tam cavab verən biznes plan.

"İnvestisiya Təşviqi Sənədi"nin sahibləri 7 il müddətinə vergi və gömrük güzəştlərindən yararlana bilərlər. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarına əsasən, yerli xammal və toxuculuq ehtiyaclarını ödəmək mümkün olmadığı təqdirdə, turizm ilə bağlı investisiya layihələri dəniz səviyyəsindən 1300 metrdən hündürlükdə yerləşən dağlıq ərazilərdə həyata keçirildiyi təqdirdə idxal edilən mallar gömrük rüsumundan azad edilir. Bir şərtlə ki, layihəni icra etmək üçün mövcud ehtiyacları yerli xammal və materiallar hesabına ödəmək mümkün olmasın [5].

Postpandemiya dövründə artıq 2021-ci ildən başlayaraq turizmin yenidən inkişafı istiqamətində atılan müvafiq qərarlardan biri də turizm haqıqında yeni qanun layihəsinin işlənib hazırlanması olmuşdur. 27 Dekabr 2021-ci il Turizm haqqında Azərbaycan Respublikasının qanunu ilə turizm sahəsində dövlət siyasətinin əsas istiqamətləri, turizm sahəsində dövlətin vəzifələri, turizm sənayesində xidmət keyfiyyətinin yüksəldilməsi, turistlərin hüquq və vəzifələri turistlərin təhlükəsizliyi, turizm ehtiyatlarından istifadənin ümumi şərtləri kimi mühüm məsələlər müəyyənləşdirilmişdir.

Postpandemiya dövründə işğaldan azad edilmiş ərazilərdə mövcud turizm potensialından səmərəli istifadə məsələsi də xüsusi önəm daşıyır. Belə ki, Qarabağ iqtisadi rayonunda infrastrukturun sürətlə qurulması, informasiya texnologiyalarının ən müasir elementlərinin tətbiqi ilə "Ağıllı kəndlər"in salınması, erməni vandalları tərəfindən yandırılaraq dağıdılmış şəhərlərimizin, kəndlərimizin, qəsəbələrimizin və ermənilər tərəfindən 21 ci əsrin xirosimosuna çevrilmiş Ağdam şəhərinin müasir standartlara uyğun yenidən qurulması işləri həyata keçirilir.Ən müasir standartlara uyğun yollar və körpülər salınır. Turizmdə əsas sahələrdən sayılan nəqliyyat infrastrukturu sürətlə bərpa edilir. 2021- ci ildə Cənab Prezident İlham Əliyevin və qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə ən müasir tələblərə cavab verən Fizuli hava limanının, 2022- ci il Oktyabr ayında isə Zəngilan hava limanının təntənəli açılış mərasimi keçirilmişdir. Türk dünyasının mədəniyyət mərkəzlərindən olan Şuşada müasir hotellər tikilmiş, müvafiq konsertlər, tədbirlər həyata keçirilmişdir.

Qarabağ regionunda işgüzar mədəni-tarixi turizmlə yanaşı rekreasiya xarakterli turizimin inkişafı üçün də perspektiv imkanlar böyükdür. Burada speleoturizmin (mağara turizmi) inkişafı da mümküdür. Dünyanın ən qədim yaşayış məntəqələrindən biri olan və Azərbaycan xalqının ulu əcdadlarının yaşadığı Quruçay vadisi məşhur Azıx mağarası məhz Qarabağ ərazisindədir.

**Nəticə**

Aparılan araşdırmalar zamanı müəyyən edilmişdir ki, paytaxt Bakı şəhəri başda olmaqla, böyük şəhərlərdə müasir standartlara uyğun turist yerləşdirmə obyektləri istifadədir. Ölkəmizin regionlardında hostellərin və nisbətən ucuz hotellərin tikilməsi istiqamətində münbit şərait vardır. Belə ki, ayrı- ayrı şəhərlərin inkişafı ilə bağlı tədbirlər və 2004 -cü ildən Regionların Sosial-iqtisadi İnkişafı ilə bağlı dövlət proqramları, pandemiyadan sonrakı dövrdə Turizm haqqında yeni qanun layihəsi, beynəlxalq turizmdə xüsusilə böyük əhəmiyyətə malik olan beynəlxalq mədəni-ictimai idman tədbirlərinin, beynəlxalq konfransların keçirilməsi, yeni müasir standartlara cavab verən hava limanlarının istifadəyə verilməsi, xüsusilə Postpandemiya dövründə Qarabağ regionunda həyata keçirilən sürətli quruculuq işləri pandemiyadan sonra turizmin inkişafı ilə bağlı əsaslı zəmin yaratmışdır.Bütün bunlarla yanaşı ölkəmizdə aqroturizmin və ekoturizmin inkişafı ilə bağlı da mühüm resurslar mövcuddur. Dünyada hələ bitməyən pandemiya səbəbindən bir çox ölkələr kimi ölkəmizdə də quru sərhədlərin bağlı saxlanılması bu proseslərə bir qədər təsir göstərir, insan səhhəti faktoru baxımından hələ ki quru sərhədlər bağlı saxlanılır. Gələcəkdə bu məhdudiyyətin də ləğvi

çərçivəsində ölkəmizə turist axınının güclənməsi gözlənilir.

Ölkəmizdə postpandemiya dövründə xüsusilə sərhədlər açıldıqdan sonra turist axınını gücləndirmək istiqamətində dövlət tənzimlənməsi tədbirləri uğurla davam etdirilir. Turistlərin yerləşdirilməsi, nəqliyyat və qida sektorunda islahatlar, eləcə də sənədlərin dövriyyəsi (notariat viza tərcümə və digər) prosesinin asanlaşdırılması həm gəlmə, həm də getmə turizminə müsbət təsir göstərəcəkdir. Şəhərlərarası avtomagistralların istifadəyə verilməsindən sonra xüsusilə turizm potensiallı ərazilərin abadlaşdırılması, rayon daxili və kənd yollarının müasir standartlara uyğun qaydada təmiri prosesləri uğurla davam etdirilir.

Dünya təcrübəsində turizm sektoruna subsidiyaların tətbiqi, tənzimlənmə tədbiri kimi həyata keçirilir. Subsidiyaların müxtəlif növləri mövcuddur. Bəzi ölkələrdə hotel tikən iş adamlarına hər nömrəyə görə ödənişlər edilir. Ölkəmizdə də Turizm sektorunda subsidiyaların tətbiqi nəzərdə tutulur [6]. Beləliklə, araşdırmalar onu deməyə əsas verir ki, postpandemiya dövründə ölkəmizdə turizm yeni inkişaf yoluna qədəm qoymuşdur. Tənzimləyici tədbirlər vasitəsilə bu sahə daha da inkişaf edəcəkdir və bu sahədə olan potensial imkanlardan daha səmərəli istifadəyə şərait yaradılmışdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Rüstəmova Solmaz, Zeynalova Reyhan, Azadəliyeva Gülxar, Nuriyeva Nabad. “turizmin marketinqi və menecmenti” (dərs vəsaiti) "elm və təhsil" bakı -2020

2 Ekskursiya rəhbəri.kitab. Peşə Təhsili üzrə dövlət agentliyi.2019

3 (https://az.wikipedia.org/wiki/2015_Avropa_Oyunlar%C4%B1)

4 https://www.taxes.gov.az/az/post/1020)

5 https://tourism.gov.az/pages/tourism_investment_opportunities)

6 https://report.az/turizm/azerbaycanin-turizm-sektorunda-subsidiyalarin-tetbiqi-nezerde-tutulur/

**Сафар Гасан оглы ПУРХАНИ,** д.э.н. проф.
Западно-Каспийский университет
Заведующий кафедрой «Туризм и отраслевая экономика»

**Расим Джаван оглы Аббасов,** док. философии по экономике. ~~PhD in Economics,~~
преподаватель кафедры «Туризм и отраслевая экономика»
Западно-Каспийского университета

# ПЕРСПЕКТИВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ МЕЖДУНАРОДНОГО ТУРИЗМА В ПОСТПАНДЕМИЧЕСКИЙ ПЕРИОД

**Резюме:**

В статье рассмотрены основные факторы в сфере международного туризма, направления развития международного туризма, показатели развития туризма в нашей стране в период до пандемии и соответствующие регулирующие меры, принятые в направлении переразвития туризма в пост пандемический период.

**Ключевые слова:** *международный туризм, путешественник, постпандемия, зоны отдыха, инвестиции.*

**Safar Hassan PURHANİ,**
doctor of economic sciences., prof.
Western Caspian University
Chairman of "Tourism and Field Economy" department

**Rasim Javan Abbasov,** PhD in Economics,
teacher of "Tourism and Field Economy" chair of
Western Caspian University

## PERSPECTIVE DEVELOPMENTAL DIRECTIONS OF INTERNATIONAL TOURISM IN THE POST PANDEMIC PERIOD

**Summary**

The article deals with the investigation of main factors and development directions in the field of international tourism, development indicators of tourism in the prepandemic period and relevant regulatory measures taken in the direction of the redevelopment of tourism in the post-pandemic period in our country.

**Keywords:** *international tourism, traveler, post-pandemic, recreation zones, investment.*

**Daxil olub:** 28.07.2022